*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2026*
*Səh. 336-344*

https://doi.org/10.62837/2026.3.336

**ƏFƏNDIYEVA NAİRƏ Pünhan qızı**
**Bakı Dövlət Universiteti**
**Ünvan: Akademik Zahid**
**Xəlilov küçəsi 33**

# DİNO BUSSATİNİN "TATAR ÇÖLÜ" ROMANINDA ZAMAN, MƏKAN VƏ İNSAN TALEYİ PROBLEMİ

**Xülasə**

Məqalədə böyük italyan yazıçısı Dino Bussatinin "Tatar çölü" romanı tədqiqata cəlb olunur. XX əsr Avropa ədəbiyyatında yazıçıların daha çox müraciət etdiyi mövzulardan biri də insanın yaşadığı maddi aləmdən çox, onun daxili dünyasının, mənəvi aləminin var olma problemlərini, yaşadığı həyatın fani və müvəqqətiliyini, mənasızlığını fəlsəfi aspektdən əks etdirən əsərlərdir. Bu kontekstdə böyük italyan yazıçısı Dino Bussatinin "Tatar çölü" romanının özünəməxsus yeri vardır. Əsər ilk baxışdan sadə süjet üzərində qurulsa da, dərin simvolik mahiyyətinə, ekzistensial fəlsəfəyə əsaslanması, dərin məndəricəsi və ümumiləşdirmə gücünə malik olması ilə oxucunu düşündürür və ona həyatın və zamanın qədrini bilməyin önəmliyini təlqin edir. Roman milliyyətindən və irqindən asılı olmayaraq, bütün bəşəriyyətə səslənərək, hiss edilmədən, səssiz keçib gedən zamanın insanın qatilinə çevrildiyini, gözləmənin isə bəzən həyatın özü kimi varlığı içəridən əridərək çökdürdüyünü və məhvə məhkum etdiyini, mənasız bir yaşantı funksiyasının daşıyıcısı olduğunu yüksək sənətkarlıqla çatdıra bilmişdir.

"Tatar çölü" Bastiani qalasında xidmət edən gənc zabitin taleyi ilə bağlı olsa da, geniş mənada bütün insanlığı təcəssüm etdirən və qlobal mahiyyətə malik olan bir əsərdir. Bussati bu əsərdə zamanın amansız axınını təsirli səhnələrlə əks etdirir, insanın passivliyini, qeyri-fəallığını və taleyə boyun əyməsi kimi məsələləri bir əsər üzərində sənətkarlıqla birləşdirməyə nail olmuşdur. Yazıçının əsas məqsədi romanda irəli sürülən zaman, gözləmə, ümid, passiv həyat mövqeyi və insan taleyi kimi məsələləri ön plana çəkmək və geniş oxucu auditoriyasına çatdırmaqdır.

**Açar sözlər: Dino Bussati, "Tatar çölü", insan taleyi, zaman, məkan, gözləmə, passivlik**

## GİRİŞ

Dino Bussati (1906–1972) XX əsr İtaliya ədəbiyyatının ən böyük yazıçılarından biridir. O, italyan ədəbiyyatında simvolizm və ekzistensial düşüncə tərzinə malik olan sənətkarlardandır. Bussatinin yaradıcılığı insanın qarşısında anlaşılmaz, susqun və dəyişməz sistemlərin dayanması kimi məsələlərin inikası baxımından daha çox fransız yazıçısı və filosofu Frans Kafka yaradıcılığı ilə müqayisə edilir.

Bussati gənclik illərindən ömrünün sonuna kimi Milanın Corriere della Sera qəzetində fəaliyyət göstərmiş və jurnalistika sahəsində qazandığı təcrübəsi onun istedadlı bir yazıçı kimi yetişməsində mühüm rol oynamışdır. Bussati "Tatar çölü" romanını 1940-cı ildə yazsa da, əsər yalnız 1945-ci ildə işıq üzü görmüşdür.

Romanda əksini tapan hadisələr müharibədən əvvəlki dövrü əhatə etsə də, çox güman ki, yazıçı dünyanın bir çox ölkələrinin cəlb edildiyi, siyasi təlatümlərin və mübarizələrin tüğyan etdiyi bir fəlakətdən, İkinci Dünya müharibəsindən təsirlənərək "Tatar çölü" romanını qələmə almışdır.

Əsər Avropada artan gərginlik, gözləmə və qeyri-müəyyənlik hissini özündə əks etdirir. Roman hərbi mühitdə cərəyan etsə də, açıq siyasi mövqe daşımır, daha çox psixoloji, fəlsəfi xarakter kəsb edir və insanın həyat qarşısında tutduğu mövqeyi sərgiləyir.

Tərcüməçi Lourens Venutinin qeydlərinə əsasən, Dino Bussatinin romanının adı əvvəlcə "La Fortezza" ("Qala") olmuşdur, lakin bu ad o dövrdə birbaşa açıq hərbi məna daşıdığı üçün nəşriyyat tərəfindən qəbul edilməmiş və "Tatar çölü" adı ilə çap olunaraq beynəlxalq aləmdə yayılmışdır.

D. Bussati kiçik və lakonik hekayələri ilə oxucuların sevimlisinə çevrilsə də, rəssam və şair kimi tanınsa da, "Tatar çölü" ona daha çox oxucu rəğbəti qazandırmış və məşhurlaşdırmışdır. Roman İtaliyada magik realizmin yayılmasına böyük təkan verən maraqlı və orijinal nəsr nümunəsidir. Əsərdə Bussatinin jurnalistik realizmi Bastiani qalasının sürreal cazibəsi ilə sintez yaradaraq onun mükəmməlliyinə təminat yaratmış, psixoloji aspektdə maraqlı, sanballı bir əsər meydana gəlmiş və müəllifinə dünya şöhrəti qazandırmışdır.Bu əsər Bussatidən sonra ədəbiyyat aləminə gələn yeni nəsil yazıçılarının yaradıcılığında öz dəyərli izlərini qoymuş, xüsusilə də C. M. Kutzeenin "Barbarları gözləyərkən" (1980) romanına da güclü təsir göstərmişdir.

## ƏSAS HİSSƏ

Romanın əsas qəhrəmanı gənc zabit Covanni Droqodur. O, hərbi məktəbi başa vurduqdan sonra ilk təyinat yeri kimi ucqar Bastiani qalasına göndərilir. Qala Tatar çölü adlanan sonsuz, səssiz və təhlükəli bir ərazidə yerləşir. Deyilənlərə görə, bir gün düşmən tatarlar qalaya hücum edə bilərlər.

Taleh Eminoğlu "Tatar çölündə qalan insan" essesində yazır: "Dino Bussati "Tatar çölü" romanını tamamlayanda İkinci Dünya müharibəsi iki il idi ki, davam edirdi. Barnabo Droqoya çevrilmiş, zabit olmuş və ölkənin ucqarında yerləşən Qalaya təyinat almışdı. Bu, onun üçün həyatının dönüş nöqtəsi idi. Çünki deyilənə görə, bu Qalaya barbarlar hücum edə bilərdilər. Amma Covanni Droqonun zamanında da Qalaya hücum olmadı.O, burada ömrünün ən gözəl illərini boş yerə, nə zaman baş verəcəyi məlum olmayan hadisəni gözləməklə keçirirdi. Hər gün hücum haqqında məlumatlar gəlir, amma heç nə baş vermirdi".

Droqo əvvəlcə qalada cəmi bir neçə ay qalmağı planlaşdırsa da, bura qeyri-adi cazibəsi, gündəlik qayda- qanunları və "böyük hadisə" gözləntisi ilə onu tədricən

özünə cəzb edir. O, qalaya öz ambisiyalarını həyata keçirə biləcək bir məbəd kimi baxır. Buna görə də özünü böyük şəhərlərdə qəhrəmanlıq göstərən, hərbi şan-şöhrətə sahib olan bir adam kimi təsəvvür edir.

Dörd ildən sonra Droqo evlərinə qayıdır. Şəhərdə vəzifə alması üçün anası müsahibə təşkil edir, lakin Droqo müraciət prosedurunu bilmədiyi üçün fürsəti qaçırır.

Başak Çeliktemel yazır: “Bastiani qalasındakı mühafizəçilərin döyüşməyi gözlədiyi tatarlar şimaldan gələcəklər; bura səhradır və həmçinin yararsız, kələ-kötür, dağlıq ərazi kimi də tanınır. Roman boyunca mühafizəçilər durbinlə izlədikləri şimal torpaqlarında qara, hərəkət edən nöqtələr, kölgələr görürlər”. Səhrada qara bir xətt görən Droqo elə zənn edir ki, düşmən yol çəkir. On beş il ərzində bu fikirdə qalır. Lakin illər ötüb keçsə də, gözlənilən hücum baş vermir. Əsgərlər və zabitlər “bir gün mütləq olacaq” fəlsəfəsi ilə yaşayırlar. Zaman isə heç nəyə baxmadan səssizcə keçib gedir, gənclik qocalıqla əvəzlənir. Droqo qarşısında açılan fürsətləri tamamilə itirir, artıq şəhərə dönmək, yeni həyat qurmaq, fərqli tale yaşamaq ümidləri əldən çıxır. Nəhayət, xəstə, 54 yaşlı Droqo ümidsiz bir halda qaladan ayrılmağa məcbur olur. Elə bu zaman, artıq onun gücü, taqəti tükənəndə illərlə gözlənilən düşmən hücumu başlayır. Lakin Droqo otuz il intizarında olduğu bu döyüşdə iştirak edə bilmir. O, mehmanxanada tənha bir halda ölümünü qarşılayır, bütün ömrü boyu gözlədiyi qəhrəmanlığın heç vaxt ona qismət olmadığına təəssüflənir və taleyin sərt üzü ilə barışmalı olur.

“Tatar çölü” romanı ilk növbədə zamanın amansızlığı və qəddarlığı, insanın taleyində açdığı mənfi izlər haqqında tragik bir əsər təəssüratı yaradır.“Amma zaman yenə də getdikcə daha sürətlə axırdı; sakit ritmi həyatı parçalara bölürdü, insan geri bir baxış atmaq üçün belə dayanmaq imkanına malik deyildi. “Dur! Dur!” – demək istəyirdi, amma sonra bunun heç bir faydasının olmadığını başa düşürdü. Hər şey, insanlar, mövsümlər, buludlar, hər şey sürətlə ötüb gedirdi; insan daşlara, bir qayaya tutunsa da faydasız idi, yorulmuş barmaqlar gevşəyir, qollar cansız şəkildə düşürdü və insan özünü yavaşlayırmış kimi görünsə də, heç dayanmayaraq axan o böyük çayın içində tapırdı”. Burada zaman hadisələrin bolluğu və zənginliyi ilə yadda qalmır, mənasız bir boşluqla, hadisəsizliklə keçir. Bussati taleyini düzgün qurmayan bir çox insanların timsalında göstərir ki, həyat bəzən faciəvi hadisələrin müşayiəti ilə deyil, heç nə baş vermədən, mühüm əhəmiyyət kəsb etməyən, yalançı ümidlər, sonu olmayan gözləntilər içərisində də əriyib yoxa çıxa bilər. Bu baxımdan Droqonun həyat amalına çevrilən “bir az da gözləyim” devizi bütöv bir ömrün yaşam tərzi kimi onu sonacan təqib edir. “Tatar çölü” romanı bu baxımdan XX əsr insanının öz əlilə uçruma yuvarladılmış, təxirə salınmış həyatının qəbul edilməyən, uğursuzluq simvoludur.

Əsər fəlsəfi aspektdən yanaşmada ekzistensial düşüncələri içərisinə alan, fərqli, absurd baxış bucağının yaddaşlarda görüntülənən mozaik təsviri təsiri

bağışlayır. Droqo və əhatəsində olan qala sakinləri həyatlarının mənasını onlar üçün heç bir xoşbəxtlik vəd etməyən, təsəvvürlərində canlandırdıqları, lakin əsl mahiyyətini dərk edə bilmədikləri, naməlum gələcəkdə baş verəcək böyük bir hadisədə axtarırlar. Onlar içərisində yaşadığı indini görmür, fərqinə varmır, olmayan, abstrakt gələcək haqqında düşünür, yalnız onun üçün yaşayırlar.

Bu məqamda Bussatinin yaradıcılığındakı heç vaxt gəlməyən fürsət Kamyudakı ümidsiz mübarizə və Kafkadakı mənasız gözlənti ilə üst-üstə düşür, yaxından səsləşir, eyni kökdən rişələnən hisslərin bir nöqtədə birləşməsi ilə sonuclanır və hadisələrin hərəkətverici qüvvəsi kimi əsas amilə çevrilir. “Yazıçının yazı üslubu mənə Qabriel Qarsia Markesin, Frans Kafkanın və Borxesin dəst-xəttini xatırlatdı. Şübhəsiz ki, adı çəkilən dünya şöhrətli yazıçılar Dino Bussatini öz təsir dairəsində uzun müddət saxlayıb. Çünki belə yazıçılar insanı yetişdirir və müəyyən mərhələyə çatandan sonra elə həmin üsluba və tərzə bənzər formada yazıb-yaratmağa vadar edir”.

Əsərdə Droqonun böyük gözləntilərinin mərkəzində dayanan tatarlar real, gerçək düşməndən çox, insanın öz içində, daxili dünyasında yaratdığı və yaşatdığı illüziyadır. Romanda diqqəti cəlb edən, hadisələrin dinamikasına vüsət verən ən əsas amillərdən biri də yazıçı təxəyyülünün obyektivində qərarlaşan Bastiani qalası və Tatar çölü kimi məkanlardır. Geopolitik məkan kimi simvollaşan Bastiani qalası qapalı, gizli bir sistemin, gözəgörünməz və mücərrəd həyatın, insanı tədricən, yavaş-yavaş udan, həzm edən mexanizmin rəmzidir.Tatar çölü isə sonsuzluq, ucu-bucağı görünməyən naməlumluq, müdhişlik, ümid və qorxudan yaranmış xaotik bir məkan kimi öz missiyasını həyata keçirir. Yazıçının təhkiyəsində bomboş olan Tatar çölü insan təhtəlşüurundakı təhlükə ilə doldurularaq real bir məkana çevrilir. Əslində isə bu, insanın öz həyatına, ömür yoluna məna yükləmək üçün uydurduğu mifdən başqa bir şey deyildir.

Ən ağrılı, insanı təlatümə gətirən və içini göynədən məqam isə Droqonun illərlə həsrətində olduğu, həyatını bu gözləntilər üzərində qurduğu həqiqi döyüşün vaxtı keçdikdən sonra reallaşması, onun fiziki imkanlarının məhdudlaşdığı bir məqama düşməsi və səhvini yalnız ömrünün sonunda anlamasıdır. Amma artıq gecdir, hər şey arxada qalmışdır.

Bussati bu əsəri ilə klassik qəhrəman obrazı haqqında fikirləri alt-üst edir, cəsurluq, yenilməzlik, əlçatmazlıq miflərini dağıdaraq adiləşdirir. Qəhrəman döyüşdə şöhrət qazanmır, mərdanəliklə həlak olmur, adi insanların ömür yoluna məxsus bir ölümlə həyatını başa vurur, sadəcə, sakitcə yox olur.Zamanın və məkanın xaotik bir situasiyası içərisində absurd düşüncələrin qurbanına çevrilir. Ümidləri çilik-çilik, arzuları puç olur. Droqonun taleyinin timsalında neçə- neçə insanın məhvi, iflasa uğraması acı təəssüf hissi doğurur. Yazıçı göstərir ki, insana bəxş edilən bir ömrü zamanın və boş xülyaların içində əritmək olmaz, hər anın belə qədir-qiymətini bilmək, dəyərləndirmək lazımdır. Çünki ötən hər gün insan ömründən ayları, illəri

səssizcə qoparır və dünyanın gəliş-gedişini düşünən, dərk edən ali varlığı heçliyə qovuşdurur.Droqo həm öz doğma kəndində, həm də qalada özünü tənha hiss edir. Monoton, cansıxıcı həyat onu passivləşdirir. "Hətta ailəsinə belə yadlaşan insan olan Droqo, evinə məzuniyyətə qayıdanda onların arasında özünü qəribə hiss edir, hansı ki bu qəribəliyin adı özgələşmədir və onun da əsas səbəbkarı Bastiani qalası, tatarların daimi, amma qeyibdə olan hücum təhlükəsi və digər insanların yalanlarıdır".

O, ömrünün gənclik illərini, imkanlarını və həyatını mənasız yerə gözləmə mövqeyinin içində itirir.Bütün bunlar XX əsrin kataklizmlərinin şahidi olmuş insanın proobrazını canlandırır, ümumbəşəri ədəbiyyatın antigeroik qəhrəmanının xarakterini yaradır.

Əsərdə diqqət mərkəzində saxlanılan qala, səhra və gözlənilən düşmən tamamilə simvolik məna daşıyır. Qala insanın öz həyatında qurduğu təhlükəsiz, fəqət dar və məhdud bir çərçivə, səhra naməlum, məchul gələcək və real həyatın özü, tatarlar heç vaxt gəlməyən böyük fürsət və ya həyatın mənası kimi simvolik səciyyə daşıyır.

"Tatar çölü"nün mərkəzində gözləmə dayanır. Qəhrəmanlar öz talelərini aktiv şəkildə formalaşdırmırlar, əksinə, hadisələrin onları tapmasını gözləyirlər. Bu gözləmə isə tədricən həyatın özünə çevrilir. Droqo qaladan getmək imkanları olduğu halda, onları daim təxirə salır. O, "bir az da qalım" düşüncəsi ilə illərini itirir. Bussati bu davranışı təkcə fərdi zəiflik kimi deyil, insani hal kimi təqdim edir. İnsan çox vaxt təhlükəsiz və tanış mühitdən çıxmaq istəmir, riskdən qorxur və bunun əvəzində həyatını passiv şəkildə yaşamağa razılaşır. Droqonun taleyi göstərir ki, passivlik də taleyin formasıdır. O, heç bir dramatik səhv etmir, lakin ən böyük səhvi həyatını gözləməyə həsr etməsidir. Romanın sonunda, nəhayət, düşmən təhlükəsi yarandıqda Droqo artıq xəstə və zəif olduğu üçün döyüşdə iştirak edə bilmir. Onun "böyük an"ı gəlib çatır, amma özü artıq həmin an üçün uyğun vəziyyətdə deyil.

Əsərin finalı dərin simvolik məna daşıyır. Droqo ölümə yaxınlaşarkən anlayır ki, onun həyatı gözləmə ilə keçib. Bussati burada gecikmiş qəhrəmanlıq anlayışını irəli sürür. İnsan bəzən qəhrəman olmaq üçün bütün ömrü boyu hazırlaşır, amma həyat o anı ya vermir, ya da insan artıq həmin məqama hazır olmur. Ölüm səhnəsi faciəvi olduğu qədər də sakitdir. Bu sakitlik romanın ümumi tonuna uyğundur və oxucuda güclü emosional təsir yaradır.

Covanni Droqo gənc yaşlarında ikən yüksək ambisiyalarla yaşasa da, riskə getməyi bacarmır. O, həyatını dinamik fəaliyyətlə dəyişmək əvəzinə rutinə sığınır. Nəticədə həm hərb sənətində, həm də şəxsi həyatında uğursuzluğa düçar olur. Romanda Droqo ilə yanaşı, digər maraqlı və yaddaqalan obrazlar da vardır. Ortiz sanki Droqonun gələcək davamçısı, prototipi kimi təsvir olunur. O, uzun illər qalada qalmasına baxmayaraq, heç vaxt müharibə görmür, döyüşlərdə iştirak etmir. Passiv və real həyatını qəhrəmanlıq illüziyası ilə ört-basdır etməklə təskinlik tapır.

Françesko Veskovi ilə Droqonun dostluğu mülki həyatdan başlanmışdır. O, rahat və qayğısız bir həyat tərzi yaşayır. Droqonun tam əksidir və onun itirdiyi həyat imkanlarının simvolu kimi xarakterizə edilir.

Yazıçı romanda gənclərin idealizmini istismar edən, sərt və qeyri-şəffaf iyerarxiyaya əsaslanan bir sistemi, hərbi mədəniyyəti satirik yöndən tənqid edir.“Tatar Çölü" həm müharibədən əvvəlki hərbi həyatın kəskin tənqidi, həm də əsgərin müstəqil şöhrət susuzluğu haqqında düşüncədir. Bu, boşa sərf olunmuş bir həyatın hekayəsi və itirilmiş vaxtın məsəlidir. Bu, gələcəyə həddindən artıq diqqət yetirən və bu günə kifayət qədər diqqət yetirməyənlər üçün bir xəbərdarlıq rolunu oynayır. Hətta yadlaşma, cavabdeh olmayan hərbi bürokratiya, qeyri-şəffaf, zahirən özbaşına idarəetmə sistemləri ilə iş aparmağa çalışmağın məyusluğu və əlçatmaz bir məqsədə çatmaq üçün boş yerə çalışmaq haqqında qara komediya kimi xidmət edir”.

Romanın ən güclü, müsbət xüsusiyyətlərindən biri də onun zamanın məhvərinə sığışmaması, bugünlə hesablaşmamasıdır. Müasir insan da çox vaxt həyatını gələcək üzərində qurur, daha gözəl məqam, daha uyğun və əlverişli şərait gözləyir. Lakin Bussati oxucunu xəbərdar edir ki, bu gözləmə ifrat həddə çatmamalıdır, əks təqdirdə insan tədricən real aləmdən uzaqlaşa, təcrid oluna bilər. Bu da nəticədə faciələrə gətirib çıxarar. Bu baxımdan “Tatar çölü” təkcə XX və XXI əsrin romanı deyil, həm də uzaq gələcəyin oxucusu üçün aktual bir əsər kimi olduqca əhəmiyyətlidir.

## NƏTİCƏ

Roman gözlənilməz bir sonluqla bitir. Əsərin finalı çox sakit, novellavari bir şəkildə tamamlansa da, ancaq baş qəhrəman üçün sarsıdıcı bir zərbə kimi dəhşətli və amansızdır. Droqo anlayır ki, illərlə gözlədiyi həlledici və son döyüş onunla, cəbhədaşları ilə müxalif mövqedə dayanan rəqiblə, düşmənlə yox, məhz özünün özüylə mübarizəsi və ölümüylə barışması ilə nəticələnir. Burada Bussatinin insanın cismani ölümünə patetik deyil, fəlsəfi yanaşmasının şahidi oluruq. Yazıçının oxucuya çatdırmaq istədiyi əsas ideoloji məqam ondan ibarətdir ki, insanın əsl cəsarəti, böyüklüyü həyatda aldandığını anlayıb dərk edə - edə sınmaması, ləyaqətini itirməməsi, ölümün gözünə dik baxaraq bu dünyanı mərdanəliklə tərk etməsidir. Əsərdə Bussati modern insanın tragik taleyini yana-yana açıb göstərir: “ Droqonun ayı görməyə vaxtı olacaqmı, yoxsa daha əvvəl getməli olacaq? Otağın qapısı yüngülcə titrəyib cırıltı ilə açılır. Bəlkə bir mehdir, ya da bahar axşamlarında əsən o incə küləklərdən biridir. Bəlkə də səssiz addımlarla yaxınlaşıb indi Droqonun kreslosunun yanına dayanan Odur. Covanni bir səylə ayağa qalxır, bir əli ilə formasının yaxasını düzəldir, pəncərədən çölə son dəfə baxır — bu, ulduzları bir daha görə bilmək üçün atılmış qısa bir baxışdır. Sonra qaranlıqda, heç kimin onu görmədiyini bildiyi halda, gülümsəyir”.

Yazıçı antiqəhrəman konsepsiyasını zaman və məkan çərçivəsi daxilində, ekzistensial gözlənti motivinin fonunda təqdim edir. Bu məqamda zamanın qəhrəman üzərindəki qalibiyyəti və təntənəsi arzuolunmaz bir gerçəklik kimi qarşımızda dayanır. Bütün reallığı ilə obrazın faciəsinin sadəlikdən qaynaqlandığını, uğursuz gözləntinin fəqət çətin və mürəkkəb bir yola istiqamətləndiyini, çıxılmaz və mümkünsüzlüyünü dərk edirsən.

Əsərin süjet xəttində dramatik hadisələr azdır. Əsas "hərəkət" zamanın sanki bir göz qırpımında keçməsidir. Hadisəsizlik vasitəsilə həyatın necə əldən çıxdığını göstərmək Bussatinin əsas bədii fəndi kimi diqqəti cəlb edir və onun böyük sənətkarlığını nümayiş etdirir.

Dino Bussatinin müəllifinə uğur qazandıran, sadə süjet xəttinə malik olan "Tatar çölü" romanı dərin fəlsəfi və psixoloji məzmun daşıyan monumental bir sənət əsəridir. Zamanın amansız axını, gözləmənin insan həyatını mənasızlaşdırması, məhvə sürükləməsi və passivliyin taleyə çevrilməsi romanın əsas ideyasını təşkil edir. Əsərin ibrətamiz sonluğu, Covanni Droqonun acınacaqlı taleyi oxucunu dərindən düşündürür və onu öz həyat yolunda doğru seçim etməyə istiqamətləndirir.

"Tatar çölü" romanı insanın həyatda aktiv mövqe tutmasının vacibliyini gündəmə gətirən, xüsusi önəm verən, ekzistensial ədəbiyyatın maraqlı nümunələrindən biri kimi bu gün də öz aktuallığını və unikallığını qoruyub saxlayan dəyərli sənət əsəridir.

**Эфендиева Наира Пюнхан кызы**
**Бакинский Государственный Университет**
**Адрес: Улица ак. Захида Халилова 33**

## ПРОБЛЕМА ВРЕМЕНИ, ПРОСТРАНСТВА И ЧЕЛОВЕЧЕСКОЙ СУДЬБЫ В РОМАНЕ ДИНО БУЦЦАТИ «ТАТАРСКАЯ ПУСТЫНЯ»

### Резюме

Данная статья посвящена исследованию произведения итальянского писателя Дино Буццати романа «Татарская пустыня».

Одна из тем, к которой часто обращались писатели европейской литературы XX века – это освещение философского аспекта человеческой жизни, проблем, связанных с его духовностью, внутренним миром и таких вопросов, как бессмысленность, быстротечность и бренность жизни. В данном контексте роман выдающегося итальянского писателя Дино Буццати занимает своеобразное место.

Хотя роман на первый взгляд имеет простой сюжет, но он обладает символический значимостью, опирается на экзистенциальную силу обобщенности и этим заставляет читателя задуматься, а также внушает ему, как важно ценить жизнь и время. Обращаясь ко всему человечеству,

независимо от национальности и расы, автор с большим мастерством смог донести до читателя, что жизнь и время, протекающие незаметно и беззвучно убивают человека, а бездействие, как и пассивная жизнь, порой приводят к внутреннему тлению и уничтожению существа, который живет бессмысленной жизнью.

«Татарская пустыня» показывает судьбу молодого офицера, служащего в крепости Бастиани, но вместе с тем, произведение в широком смысле олицетворяет все человечество и обладает глобальной значимостью.

Буццати удалось мастерски показать в трогательных сценах беспощадность протеканию времени и такие вопросы, связанные с человеческой пассивностью, бездействием, покорностью судьбе – всё это он смог объединить и отобразить в рамках одного произведения.

Основная цель автора – довести до широкой аудитории читателя выдвинутые им в произведении такие вопросы, как время, выжидание, надежда, пассивная жизненная позиция и человеческая судьба.

**Ключевые слова: Дино Буццати, «Татарская пустыня», человеческая судьба, время, пространство, ожидание, пассивность.**

**Afandieva Naira Punhan kyzy**
**Baku State University**
**Address: Zahid Khalilov st.33**

## THE PROBLEM OF TIME, SPACE, AND HUMAN DESTINY IN DINO BUZZATI’S NOVEL THE TARTAR STEPPE

**Summary**

The novel "The Tatar Desert" by the great Italian writer Dino Bussati is discussed. One of the themes that writers most often addressed in the 20th century European literature is the works that reflect from a philosophical point of view the problems of the existence of the inner world, the spiritual world, the mortal and temporality of the life he lives, rather than the material world in which he lives. In this context, the novel "Tatar Desert" by the great Italian writer Dino Bussati has a special place. Although the work is based on a simple plot at first glance, it makes the reader think with its deep symbolic essence, existential philosophy, deep content and generalizing power, and inspires the reader to appreciate life and time. The novel was able to convey with high craftsmanship that the time that passes unnoticed, silently, turns into a murderer of man, and that expectation sometimes melts and collapses existence from within, like life itself, and is the bearer of the function of a meaningless life.

Although "The Tatar Desert" is related to the fate of a young officer serving in the Bastiani Castle, it is a work that in a broad sense embodies all of humanity and has a global nature. In this work, Bussati depicts the relentless flow of time with impressive scenes, managing to combine issues such as human passivity, inactivity, and submission to fate with artistry on a work. The main goal of the writer is to bring to the fore such issues as time, expectation, hope, passive life position and human destiny in the novel and to convey them to a wide audience of readers.

**Keywords: Dino Buzzati, The Tartar Steppe, human destiny, time, space, waiting, passivity.**

## ƏDƏBİYYAT SİYAHISI

1.Başak Çeliktemel. Tatar Çölündeki Karaltılar Ne? Türkiye, Birikim dergisi. 12 Ocak 2025. Pazar.
2.Christopher Johnson Time Slips By: Reviewing The Tartar Steppe. Yayımlandığı platforma: The Bridge – beynəlxalq strateji və ədəbi təhlil saytı (The Strategy Bridge):April 8,2020. https://thestrategybridge.org/the-bridge/2020/4/8/time-slips-by-reviewing-the-tartar steppe?utm_source=chatgpt.com.
3.Deno Buzzati. Tatar çölü. Çevirən Hülya Tufan, Türkiye İletişim yayınevi, 1baskı (1991).231s.
4. Taleh Eminoğlunun essesi- Tatar çölündə qalan insan. 525-ci qəzet. 07.12. 2019-cu il.
5.**https://niftiyevibrahim.blogspot.com/2016/11/dino-bussati-tatar-colu.html.**

**Rəyçi: prof. Cəlil Nağıyev**